# Müstəqillikdən güc alan enerji siyasəti dünyaya işıq saçır

**Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın qarşısında duran ən mühüm vəzifələrdən biri enerji təhlükəsizliyinin təmin olunması idi. Təkcə daxili ehtiyacların ödənilməsi yox, həm də regionda və beynəlxalq miqyasda etibarlı enerji tərəfdaşı olmaq hədəfi dövlətin uzunmüddətli strategiyasına çevrildi.**



Sovet İttifaqının dağılmasından sonra ölkəyə tükənməkdə olan enerji infrastrukturu, sıradan çıxmış avadanlıq və qeyri-sabit enerji təminatı miras qalmışdı. 1990-cı illərin əvvəllərində Azərbaycanın enerji sektoru ağır texniki və iqtisadi çətinliklərlə üz-üzə idi. Elektrik enerjisi təminatında fasilələr, neft hasilatında geriləmələr və kapital çatışmazlığı əsas problemlər sırasında idi. Həmin dönəmdə həm daxili tələbatın ödənilməsi, həm də xarici bazarlara çıxış imkanlarının yaradılması yalnız uzaqgörən və ardıcıl enerji siyasəti ilə mümkün ola bilərdi. Bu illərdə qəbul olunan ən mühüm qərarlardan biri 1994-cü ilin 20 sentyabrında imzalanan və tarixə "Əsrin müqaviləsi" kimi düşən razılaşma oldu. Bu müqavilə Azərbaycanın enerji sektorunun beynəlxalq inteqrasiyası və modernizasiyası üçün əsas təməl daşı idi. Dünyanın 8 ölkəsindən 11 şirkətin iştirak etdiyi bu anlaşma Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yatağının birgə işlənməsini nəzərdə tuturdu. Müqavilə ilə ilk dəfə olaraq Azərbaycan neft hasilatını beynəlxalq bazarlara daşımaq üçün real mexanizm yaratdı. Bu isə təkcə iqtisadi deyil, həm də siyasi sabitliyə töhfə verən amil oldu. 2003-cü ildə Prezident İlham Əliyevin hakimiyyətə gəlməsi ilə enerji sektoru daha sistemli və strateji yanaşmalarla inkişaf etdirilməyə başlandı. Ölkə rəhbərliyi enerji resurslarını təkcə iqtisadi gəlir mənbəyi kimi deyil, həm də milli təhlükəsizlik, xarici siyasət və sosial inkişaf aləti kimi qiymətləndirdi. Bu dövrdə Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri layihəsi həyata keçirildi. 2006-cı ildə istismara verilən bu 1768 kilometrlik kəmər Azərbaycanın neftini Gürcüstan və Türkiyə üzərindən Aralıq dənizinə çatdırdı. Bu, Azərbaycanın enerji resurslarını Rusiya və İran alternativləri olmadan dünya bazarına çıxaran ilk real xətt idi. 2007-ci ildə açılan Bakı-Tbilisi-Ərzurum (BTE) qaz kəməri isə Azərbaycanın təbii qazını Türkiyəyə və oradan Avropaya daşımağa başladı. Bu xəttin formalaşması "Şahdəniz" yatağının mərhələli şəkildə istismarını təmin etdi. Eyni zamanda, bu dövrdə enerji infrastrukturunun modernizasiyasına diqqət artırıldı. Yeni istilik və su elektrik stansiyaları inşa edildi, mövcud obyektlər təmir olundu. "Mingəçevir İstilik Elektrik Stansiyası", "Sumqayıt SES", "Yenikənd SES" kimi obyektlərdə əsaslı təmir və yenidənqurma işləri aparıldı. 2010-cu illər isə ölkəmizin enerji strategiyasında beynəlxalq miqyasda yeni mərhələnin başlanğıcı oldu. Bu dövrdə Azərbaycan öz resurslarını Avropa bazarlarına çıxarmaq üçün daha geniş və dərin inteqrasiya siyasəti yürütməyə başladı.

2014-cü ildə təməli atılan Cənub Qaz Dəhlizi 2020-ci ildə tam gücü ilə fəaliyyətə başladı. Üç əsas komponentdən, yəni Cənubi Qafqaz Qaz Kəməri, TANAP (Trans-Anadolu Qaz Kəməri) və TAP-dan (Trans-Adriatik Qaz Kəməri) ibarət olan bu sistem Azərbaycanın qazını Avropaya çatdırmaq üçün geosiyasi əhəmiyyətə malikdir. Bu layihə ilə Azərbaycan Avropa Komissiyası tərəfindən etibarlı enerji tərəfdaşı kimi qəbul edildi. "Şahdəniz-2" layihəsi çərçivəsində hasil olunan təbii qaz bu dəhliz vasitəsilə 12 ölkəyə ixrac olunur. Atılan addımlara paralel olaraq "Azəri-Çıraq-Günəşli" yatağında hasilat stabil saxlanıldı və yeni quyular qazıldı. BP ilə uzunmüddətli əməkdaşlıq müqavilələri yeniləndi. Bu illərdə alternativ və bərpaolunan enerji sahəsində hüquqi-inzibati baza formalaşdırıldı. Azərbaycan "yaşıl enerji" konsepsiyasını ilk dəfə dövlət siyasətinin bir parçası kimi elan etdi. İkinci Qarabağ müharibəsindən sonra azad edilmiş ərazilərin "yaşıl zona" elan edilməsi Azərbaycanın enerji siyasətində yeni mərhələyə yol açdı. "Yaşıl enerji" strategiyası artıq konkret layihələrlə müşayiət olunmağa başladı. 2023-cü ildə istifadəyə verilmiş Qaradağ Günəş Stansiyası layihəsi hər il 550 milyon kWh enerji istehsal edir. Layihə Masdar (BƏƏ) şirkəti ilə əməkdaşlıqla reallaşıb. 2025-ci ilə qədər tam istismara veriləcək Xızı-Abşeron Külək Stansiyası isə Azərbaycan üçün ilk irihəcmli külək stansiyası olacaq. 2024-cü ildə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanan razılaşma çərçivəsində Xəzərdən Qara dənizə qədər uzanan 1100 kilometrlik dənizaltı kabel vasitəsilə 1 GW gücündə yaşıl enerji Avropaya ixrac ediləcək. Azərbaycanın enerji siyasətində qarşıdakı on ildə əsas hədəflər isə 2027-ci ilə qədər 2 GW-lıq təmiz enerji istehsalı, 2030-cu ilə qədər ümumi yeniləne bilən enerji gücünün 6-6.5 GW-a çatdırılması, "yaşıl enerji"nin ixrac üçün əsas mənbəyə çevrilməsi, Qarabağ və Şərqi Zəngəzurda hidro və günəş stansiyalarının gücləndirilməsi, enerji sahəsində ixrac portfelinin diversifikasiyası və gəlir dayanıqlılığının təmin edilməsidir.

Prezident İlham Əliyevin Mingəçevirdə "8 Noyabr" Elektrik Stansiyasının açılışında səsləndirdiyi fikirlər ölkəmizin enerji siyasətinin fəlsəfəsinin və nailiyyətlərinin təsdiqidir. 2025-ci il iyunun 24-də Prezident İlham Əliyev Mingəçevirdə yerləşən və ölkənin ən böyük istilik elektrik stansiyası olan "8 Noyabr" Elektrik Stansiyasının açılış mərasimində çıxış etdi. Bu stansiyanın 1280 MVt gücü var və 20 il ərzində Azərbaycanın enerji sektorunda görülən işlərin simvolik yekunudur. Mingəçevirdə istifadəyə verilən "8 Noyabr" Elektrik Stansiyası həm texniki göstəricilərinə, həm də adının daşıdığı rəmzi məna baxımından Azərbaycanın enerji tarixində yeni səhifə açır. 1280 MVt gücündə olan bu stansiya müstəqil Azərbaycan indiyədək inşa olunan ən böyük elektrik stansiyasıdır. Onun adı isə Vətən müharibəsində qazanılmış Zəfərin tarixini, 8 Noyabr 2020-ci ili əbədiləşdirir. Bu, təsadüfi seçim deyil. Çünki dövlətimiz enerji potensialını artırmaqla təkcə iqtisadi gücünü deyil, həm də siyasi və mənəvi üstünlüyünü möhkəmləndirdiyini göstərmək istəyir. Prezident çıxışında Mingəçevirin tarixən energetika mərkəzi kimi formalaşdığını və burada güclü kadr potensialının olduğunu xüsusi vurğuladı. Əslində, bu fikrin arxasında böyük bir siyasət dayanır. Azərbaycan enerji siyasətində yalnız texnologiyaya deyil, insan resursuna da önəm verir. Texniki universitetlərdə mütəxəssis hazırlığı, yerli kadrların xarici təcrübə proqramlarına göndərilməsi, elm və sənayenin birləşdirilməsi istiqamətində atılan addımlar bu siyasətin tərkib hissəsidir. "8 Noyabr" Elektrik Stansiyası kimi mürəkkəb layihələrin yerli mühəndis və işçilərlə həyata keçirilməsi bunun nəticəsidir. Deməli, Azərbaycanın enerji siyasəti təkcə enerji hasilatı və ixracı ilə məhdudlaşmır. Bu sektor iqtisadi inkişafın əsas lokomotivi kimi nəzərdən keçirilir. Neft Fondu vasitəsilə neft-qaz gəlirlərinin sosial layihələrə yönəldilməsi, qeyri-neft sektorunun inkişafı üçün investisiyaların ayrılması bu yanaşmanı göstərir. "8 Noyabr" Elektrik Stansiyası həm də sənayeləşmə strategiyasının bir hissəsidir. Bu stansiya enerji təchizatının sabitliyini artırmaqla sənaye parklarının, aqroparkların, ixrac yönümlü istehsal müəssisələrinin inkişafına imkan yaradacaq. Beləliklə, enerji iqtisadiyyatın hər sahəsinə təsir edən strateji alətə çevrilir. Prezident çıxışında, həmçinin vurğuladı ki, son 20 il ərzində biz Azərbaycanın energetika sistemini demək olar ki, sıfırdan qurmuşuq. Bu gün Azərbaycan qazı 12 ölkəyə ixrac olunur və bu, bizim etibarlı tərəfdaş statusumuzu gücləndirir. Həmçinin 8 Noyabr Elektrik Stansiyasının istifadəyə verilməsi ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək: "Ümumilikdə bu stansiyanın yaradılması və qısa müddət ərzində bütün işlərin başa çatması ölkəmizin gücünü, potensialını, energetiklərimizin təcrübəsini, peşəkarlığını göstərir. Bu gün 8 Noyabr elektrik stansiyası ölkəmizin ən böyük elektrik stansiyasıdır".

Bu açıqlamalar Azərbaycanın enerji modelinin davamlı inkişaf yolunda olduğunu və qarşıda daha böyük məqsədlərin dayandığını göstərir. Nəzərə alsaq ki, Azərbaycan müstəqillik dövründə enerji sahəsində bəlkə də dünya miqyasında ən böyük transformasiyalardan birinə imza atdı. Neftdən başlanan yol qaz, sonra "yaşıl enerji"yə, daha sonra isə enerji diplomatiyasına qədər uzandı. Bu gün Azərbaycan nəinki enerji ixrac edən bir ölkədir, eyni zamanda enerji təhlükəsizliyi təmin edən strateji tərəfdaş kimi qəbul olunur. O zaman enerji sektorunda əldə edilən bu nailiyyətlər yalnız iqtisadi göstəricilərlə yox, həm də siyasi müstəqillik, regional güc və qlobal əməkdaşlıq baxımından Azərbaycanın rolunu artırır. "8 Noyabr" Elektrik Stansiyası ilə də Azərbaycan bu gücün yeni zirvəsinə doğru addımlayır.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**